Ədalət.- 2021.- 2 oktyabr. S. 8.

# BAKIDAN ŞUŞAYA UZANAN YOLLAR

## (Cənnətim, sərvətim Qarabağdır, Şuşadır...)

**(əvvəli ötən sayımızda)**

Şəhərin su anbarına çatanda Şuşa nəvazişli ana kimi qollarını açıb bizi bağrına basdı. Uşaq sevinci ilə yol boyu xəyalımda dolaşan misralarla həsrətin çəkdiyim anamın - Şuşanın qucağına sığındım və dedim:

***Anam Şuşa, nəhayət, ayrılıq sona çatdı,***
***Gözlərindən öpməyə-görüşməyə gəlmişəm!***
***"Dəmir yumruq" sahibi - Ali Baş Komandanla,***
***Qəhrəmanlıq tarixin yazan ər oğullarla,***
***Canını səndən ötrü verən şəhidlərinlə,***
***Düşmənin qabağında əyilməz qazilərlə,...***
***Duyğumu, sevincimi bölüşməyə gəlmişəm!***

***İnsanı ovsunlayan füsunkar yaylaqlardan,***
***Buzdan köynək geyinən nəğməkar bulaqlardan,***
***Buludlarla öpüşən əlçatmaz zirvələrdən,***
***Məcrasına sığmayan nəhrli dərələrdən,***
***Düşmənin ürəyinə ox olan Qarabağdan,***
***Pənahdan bizə qalan möhtəşəm qalalardan,***
***Anamız Natəvanı soruşmağa gəlmişəm!***

***Daş üstə daş qalmayan -kül olmuş sarayıma,***
***Dünyanı yuxusundan oyadan harayıma,***
***Oğuzdan üzübəri gəlib çatan boyuma,***
***Cıdırda nəvəm üçün edəcəyim toyuma,***
***"Qırxqız"a, Xocalıya, Qarğar adlı çayıma,...***
***Müqəddəs torpağıma-daşıdığım soyuma,***
***Atamın ocağına qovuşmağa gəlmişəm!!!***

Maşınlar "Xarıbülbül" otelinin qarşısında dayandı. Otel işçiləri bizi çox mehribanlıqla qarşıladılar. Qalacağımız otaqların açarlarını bizə payladılar. Birinci mərtəbədəki yeməkxanada nahar etdik. Otaq yoldaşım yaxından tanıdığım gözəl insan, Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı oldu.

Yorğun olmağıma baxmayaraq gənclik illərimdəki xatirələrimi axtarmaq üçün şəhərə çıxdım. Təhsil aldığım məktəbimizə, şəhidlərimizi dəfn etdiyimiz qəbristanlığa, Gövhər ağa məscidinə, uzun illər işlədiyim təhsil şöbəsinin binasına, daşı daş üstə qalmayan, kol-kos basmış evimizin həyətinə, qohumlarımızın evlərinə, Cıdır düzündə əbədiyyətə qovuşmuş atamın yerlə yeksan olmuş məzarın tapmağa, tarix və memarlıq abidələrimizi görməyə getdim. Qazaxlı balası Valeh qardaş maşınla məni istədiyim yerlərə apardı. Çox ləyaqətli inşandı.

...1992-ci ildə erməni vandalları tərəfindən güllələnmiş və tanınmaz hala salınmış Natəvanın, Üzeyir bəyin və Bülbülün büstlərinin qarşısında dayandıq. Bu büstlər ölkə başçısı tərəfindən erməni vandallarının əlindən alınaraq Bakıya qaytarılmış və Azərbaycan İncəsənət Muzeyinin həyətində saxlanılmışdır. Büstlər Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən bərpa olunmuş və öz doğma şəhərlərinə - Şuşaya gətirilərək əvvəlki yerlərində ucaldılmışdılar. Bu büstləri Bakıda Azərbaycan İncəsənət Muzeyinin həyətində görəndən sonra "Güllələnmiş heykəllərin sualları" adlı əsər yazmışdım. Mənim təşəbbüsüm və rəhbərliyimlə həmin vaxtlarda X.B. Natəvanın əziz xatirəsinə hörmət əlaməti olaraq "Məclisi-üns" - "Söz gülüstanı" adlı ədəbi birlik yaratdıq, həm də "Vaqif çeşməsi" ədəbi birliyini qoruyub saxladıq. Ədəbi birliyin keçirdiyi tədbirlərlə bağlı mətbuat səhifələrində istənilən qədər yazılar vardır.

Heç şübhəsiz ki, "Vaqif çeşməsi" ədəbi birliyi yenidən öz fəaliyyətini Şuşada davam etdirəcəkdir.

...Gecəni səhərə qədər yata bilmədim. Məhərrəm Qasımlıya dəfələrlə Şuşanın başına gətirilmiş müsibətlərdən, bu şəhərin tarix və memarlıq abidələrindən, poeziya və mədəniyyət beşiyi olmasından, dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətlərindən, Heydər Əliyev Fondunun Şuşa ilə bağlı gördüyü uğurlu işlərindən, ölkə başçısının Şuşaya xüsusi diqqət və qayğısından, Qarabağla və Şuşa ilə bağlı yazdığım şeirlərdən, kitablardan, məqalələrdən hərtərəfli məlumat verdim. Öz növbəsində Məhərrəm müəllim də Şuşaya həsr etdiyi şeirlərindən oxudu. Bir sözlə, səhəri şeirlə qarşıladıq. Səhər gəzintisi zamanı dostumuz yazıçı Mustafa Çəmənli ilə Şuşadakı yer-yurd adları ilə bağlı fikirlərimizi bölüşdük. Şair dostum əməkdar jurnalist Əbülfət Mədətoğlu ilə 70-80-ci illərdə Şuşadakı tanışlığımızdan, "Qönçələr" ədəbi birliyindəki yazılarımızda söhbət açdıq...



30 avqust 2021-ci il. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzünün yaxınlığında xalqımızın klassik şairi Molla Pənah Vaqifin adına ucaldılmış məqbərənin qarşısında çoxsaylı şair və yazıçıların alqışları altında möhtəşəm tədbirə qatıldılar. Onu da deyim ki, Vaqifin möhtəşəm məqbərəsi Heydər Əliyev Fondu tərəfindən yenidən bərpa edilmişdir.

Ölkə başçısı məqbərənin dəhlizindən poeziya iştirakçılarını salamladı və tədbiri açıq elan etdi. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Prezident İlham Əliyev bir neçə dəfə Ulu Öndər Heydər Əliyevlə birlikdə Şuşada olduğundan, 1982-ci ildə M.P. Vaqifin məqbərəsinin açılışında və poeziya bayramında iştirak etdiyindən, Şuşaya sonsuz məhəbbətindən, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə son on ayda Şuşada görülmüş bərpa və quruculuq işlərindən, xüsusilə Vaqifin məqbərəsinin bərpa edilərək yenidən ucaldılmasından, şuşalıların doğma yurdlarını ziyarət etmələrinə göstərilən qayğıdan, şəhərin Baş Planının hazır olmasından, şəhər əhalisinin dədə-baba mülklərinə həssaslıqla yanaşılmadan, əhalinin tezliklə evlərinə qayıdacaqlarına böyük inamdan, Şuşanın dünyanın ən unikal şəhərlərdən birinə çevriləcəyindən qürur hissi ilə danışdı.

Sonra xalq şairi Nəriman Həsənzadə, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, xalq yazıçısı Elçin Əfəndiyev, yazıçı İlqar Fəhmi ürək sözlərini söylədilər. Ölkə başçısı məqbərənin qapısını açdı və Vaqifin məzarı ziyarət olundu. Sonra Prezident və ölkənin birinci xanımı şuşalılarla xatirə şəkli çəkdirdilər. Tədbir 31 avqustda da davam etdi. Xalq şairi Sabir Rüstəmxanlı, şair Vaqif Bəhmənli, AYB-nin Mətbuat Xidmətinin katibi, şair Xəyal Rza, gənc şair Şəhriyar və b. şeirlər oxudular.

...Tədbirdən sonra yaxın dostum, yazıçı-jurnalist Aqil Abbas, "525-ci qəzet"in redaktoru Yusif Rzayev, mən Əyyub Şırlanlı, bizi Şuşaya gətirən avtobus sürücüləri: Valeh İbrahimov, Nəhmət Əhmədov Şuşa Rayon Polis İdarəsinin əməkdaşlarının bizə mənəvi köməklikləri sayəsində həsrətində olduğumuz İsa bulağın ziyarət elədik. Bulaqda xidməti tapşırıqları yerinə yetirən əsgərlərimizi bağrımıza basdıq. Bulağın üstünə vurulmuş bayrağımızı öpdük. 30 ilə yaxın ayrılıq nə İsa bulağının ruhun, nə suyunun dadın, nə də meşənin gözəlliyin dəyişdirə bilməmişdi. Suyu dizlərimiz üstə əyilərək ovuclarımızda içdik. Mənə elə gəldi ki, xeyli cavanlaşdım. Özümdən asılı olmayaraq cingənə və zil səslə "Qarabağ şikəstəsi"n oxudum. Təbiət bizi ovsunlamışdı. Sərvətim və cənnətim olan Qarabağdan, Şuşadan yazdığım şeirlərdən, tarixi yzılarımdan nümunələr söylədim. Sanki dünyaya təzədən gəlmişdim. Ağaclarda, çiçəklərdə, güllərdə, sularda, yaylaqlarda qalan xatirələrimi dostlarla bölüşdüm:

***Dostlar, qınamayın şairləri siz,***
***Xəyalın dağlara uçan vaxtıdır.***
***İndi "Topxana"da, Cıdır düzündə,***
***Lalənin, nərgizin açan vaxtıdır.***

Üzümü Aqil Abbasa tutub dedim:

***Məndən Qarabağı soruşan qardaş,***
***Gəl Şuşanın qucağında görüşək.***
***Üzeyirə layla çalan şəhərdə,***
***Pənah xanın ocağında görüşək!***

Qazaxlı balası Valehə isə dedim:

***Gör gözünlə Şahbulağın qalasın,***
***Ud doyunca Cıdır düzü havasın.***
***Eşit Xanın, "Şahnazı"nın sədasın,***
***Gəl Natəvan bulağında görüşək!***

Yusif müəllimə dedim:

***Gəz doyunca Daşaltının dərəsin,***
***İç moruğun, böyürtkənin şirəsin,***
***Yığ "Üçmıx"ın, kəklikotun, zirəsin,***
***"Şəfahətin yaylağı"nda görüşək!***

Nəhmətə dedim:

***Ovsunlasın səni "Qırxqız" yaylağı,***
***Zarıslının, Quşçuların qaymağı.***
***Kosaların kəklik, turac oylağı,***
***"Topxana"da, Kirs dağında görüşək!***

Mən şeiri qurtaranda Aqil müəllim əllərini Şahbulaq səmtinə uzadaraq Qarabağa sonsuz sevgisindən, yazdığı "Batman qılınc" və "Dolu" romanlarından, Şuşada olduğu günlərədən ürək açan xatirələr söylədi.

Bulağın suyundan götürüb: "Allah, bu müqəddəs suyu və torpağı bizə çox görmə," - deyərək təşnəsini söndürdü...

Hamımız bulağın üstündəki bayrağımızı təkrar öpərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şuşanı və digər ərazilərimizi işğaldan azad edən əsgər və zabitlərimizə, qazilərimizə can sağlığı, şəhidlərimizə Allahdan rəhmət dilədik.

Yusif müəllimin İsa bulağının zümrüd meşəsinə dəlicəsinə vurğunluğun hiss edib dedim:

***Qardaş, gözəlliyin vurğunusansa,***
***Dolan Qarabağı, dayan Şuşada.***
***Yat zümrüd meşədə, bulaq başında,***
***Şəlalə səsinə oyan Şuşada.***

Bu misralar gözlərimiz qarşısında meşənin o tayında görünən Xəlfəli kəndindən mənim doğulduğum və ədəbi təxəllüsüm qəbul etdiyim, insanı heyrətə gətirən mənzərələrindən doymadığım, maraqlı yazılar və şeirlər həsr etdiyim Şırlan kəndinə uzanan yolları xəyalımda canlandırdı. Dostlarıma dedim ki, görün mən Şuşanın hansı kəndində dünyaya göz açmışam?!

***Beçə balı - can dərmanı, buz bulaq,***
***Dərələrdə yarpız, qıjı, quzqulaq.***
***Nə gizlədim: hər addımda yüz bulaq...***
***Yazı, yayı sazlı - sözlü Şırlanım,***
***A dağları geniş düzlü Şırlanım!***

***Kəkliyinin nəğməsindən doymaram,***
***Turacıyın şən səsindən doymaram,***
***Moruğuyun şirəsindən doymaram,***
***Meşələri cüyür izli Şırlanım,***
***Bulaqları zümrüd gözlü Şırlanım!***

***Şəlalər dərələrdə kaman, tar,***
***"Gəlin qaya" əsrlərdən yadigar.***
***Nə vaxt gəlsən gədiklərdə qar olar...***
***Zirvələri qarlı - buzlu Şırlanım,***
***Gecələri Ay, ulduzlu Şırlanım!***

***Yolun düşsə bu yerlərdə yaylağa,***
***Qonaq edər hər kəs səni qaymağa.***
***Qəlbin gülər, səmtin düşsə oylağa...***
***Qonağına gülərüzlü Şırlanım,***
***Qocaların yaşı yüzdü, Şırlanım!***

***Uzundərə, "Sarıbaba" yaylağım,***
***Qarlı "Qırxqız" at belində oylağım.***
***Kaş olaydım hər gün sənin qonağın,***
***Qız-gəlini qara gözlü Şırlanım,***
***Oğulları Babək dizli Şırlanım!***

İsa bulağından ayrılanda Aqil müəllim dedi ki, Əyyub müəllim, səfərlə bağlı təəssüratlarını və bir neçə şeirlərini "Ədalət" qəzetinə təqdim etməyinizi gözləyəcəm...

Sonda deyək ki, istər Vaqifin məqbərəsinin qarşısında, istər İsa bulağında, istərsə də Cıdır düzünün gəzməli və görməli mənzərələrində şair və yazıçı dostlarımızla çəkdirdiyimiz xatirə şəkilləri (30-31 avqust 2021-ci il) gələcəkdə balalarımızın, nəvə-nəticələrimizin, tədqiqatçıların yazacaqları yazıların mövzuları olacaq. Bu ziyarət uşaqlıq və gənclik illərimdəki xatirələri mənə qaytardı.

**Hansı elin-obanın, hansı dağın dərənin, hansı gülün çiçəyin adı çıxıbsa yaddan, bəs, onda necə deyim: məni bağışla, Vətən?!... Hər şey yaddan çıxsa da Vətən yaddan çıxmaz!**

*Əzizim, Vətən yaxşıdır,*
*Köynək, kətan yaxşıdır.*
*Gəzməyə də Vətən yaxşıdır,*
*Ölməyə də Vətən yaxşıdır!*

Nəhayət uzun illərdən bəri qəlbimizdə yaşatdığımız bir arzunu bildirmək istəyirəm: Şuşa şəhərində Qarabağ xanlığının qurucusu, Şuşanın banisi Pənahəli xanın heykəlinin ucaldılması xalqımıza, Qarabağla bağlı tariximizə, keçmişimizə, soy kökümüzə, ulu babalarımıza böyük hədiyyə olardı!!!

**Əyyub Şırlanlı, şair -publisist,**
**AYB-nin üzvü, əməkdar müəllim,**
**"Qızıl qələm" mükafatı laureatı,**
**birinci Qarabağ müharibəsinin veteranı**